■ Elxan Zal

SEVİŞ UÇUŞUMUZDU

anam Taissanı düşünürəm mən,
kainat ovcumda nöqtə kimidir.
sevgi fontanları həzz verir mənə,
mənim sevdiklərim ilahələşir.

* * *

şüşədə kölgə var, qəlbimdə səs var,
bu otaq, bu yataq xəyaldı yoxsa?
üstümə yeriyir susqun divarlar,
hər şey yerindədir, sən isə yoxsan.

kədərim asılıb ayaqlarından,
kədərim naləli anadilimdir.
lianlı - söyüdlü eşq parklarında,
ölən xatirələr dilim-dilimdi.

o ölən anlarda sən yaşayırsan,
bir də yaz, bir də mən, bir də ikimiz.
ulduz gecələri nur daşıyırsa,
biz asan çəkirik hicran yükünü.

həsrət günlərinin gözləri yaşıl,
həyatın sonudur həsrətin sonu.
hər səni ananda, xoş müjdə quşu,
dərdin divarını dimdiklə yonur.

YALNIZLIQ QORXUSU PIÇILTISIZDI

Tauz Paris deyil, mən qall deyiləm,
xəyalım fırlanır tonqal başına.
yarpaq qoxusunda əriyən külək,
druid duaları söyləyir mənə.

Ay işıq çiləyir, telefon susur,
yalnızlıq qorxusu pıçıltısızdı.
sevda ulduzunun bayatıları,
mələk günahına qarışır ertə.

qənirə ilahəm, qutlu ilahəm,
axşam düşüncəsi eşq tamındadır,
könül kafeləri gəl-gəl deyirlər,
reklam işıqları öpüş göndərir.

gəzməli günlərin balet çağıdır,
fontanlı parklara bilet var, gedək.
“Torqovı” Monmartr olmasa belə,
bizim də öz “zəfər tağları”mız var.

sevgilər sığışmaz kainatlara,
“Yelisey çölü”nə yel qovur həvəs.
müqəddəs türkülər oxuduram mən,
saçlı söyüdlərin yarpaqlarına.
gözləmə ömürdən uzun olurmuş,
ilahi yanğılar qucağa sığmaz.
ulduz baxışları Elen kimidir,
Parisə bənzəyir yaşılgöz gecə.

AXŞAM DƏRİN, UMAY UZAQ

pəncərə ardında axşam,
sərin sularda sərinlik,
ürkək bulud ilxıları didik-didik.
sıralanıb göy üzünə acılardan bir alay.
Ay, Ay,
can soyudan Ay
sap sallayır qaranlığa,
bir anlığa mürgü vurarkən şəhər.
kəhər kişnərtisi qulaqlarda
və uzaqlarda bozqır kabusu karvan.
yollar gedir, dayanır an,
gizli səma qapıları açılırlar taybatay,
dilimdə dua var, duamda Umay.
necə məhrəmdir bu axşam,
şəfqət Ay sükutuna ilişik.
uyqu qaçışında buza, duyğu yerişində pişik.
həzin bir müəzzin ovqatı sokaklarda,
və uzaqlarda bozqır kabusu karvan.
mənim axşam dualarım girir gizli qapılardan.
eşit məni eşit Umay!
Ay, Ay,
can soyudan Ay
gizli qapılar üstündə fanar.
ulduz yanar acısında duaların,
ulduz yanar səkkizqıraq.
axşam dərin, Umay uzaq.

MART HƏSRƏTİ

dilləndir, dilləndir susmuş fleytanı,
bəlkə söyüdlərin saçı darana
bu sonsuz gecənin nəmli haytası,
dönüb duyğuların dərd cidarına.

qurtardı quşların nəğmə saatı,
pişiklər yatışır mart həsrətində.
dəmir başmağını yırtan əsatir,
indi nəğmə qoşur səhərə tində.

rəng-rəng tüstülənir yol işıqları,
yaşmaqlı gecələr utancaq olub.
elə bil qaraçı alaçıqları,
yuxulu səhrada səhv salıb yolu.

getdi son avtobus, nəymiş təsəlli,
bu, nə yolçuluqdu, müsafiri yox.
biz saziş bağladıq dövlət məsəlli,
bəs niyə yanımda bir səfirin yox.

uçmağa həvəsli üzüntülər var,
gəl aç, könlümdəki qara qaytanı.
hərdənbir nəğməsiz qalsam, nə olar,
dillənir, dilləndir susmuş fleytanı.

UNUDULMAZ İSTANBUL

qaranlıq gizlənərkən işiqlarda,
suların gözündə göy üzü gülər.
qarmaq atar bürclərinə ayrılıqların,
içimizdə yatan səlcuq ruhumuz.

rüzgarın öpüşü yovşan yumşaqlığında,
at həsrəti saçlarının sığalında yayğın.
işıqlar oynaşmaq istəyir sinən üstündə,
mənim əllərim söyüd yarpaqları qədər hesabsız.

körpülər üstündə qoşqu söyləyir gecə,
mən sənə zireh toxuyuram sığallardan.
hər sevdadan nə vaxtsa bir fateh doğulur,
hər eşqin öz meydan savaşı var.

bir ömrə dəyər Boğaziçində bir gün,
qadağan sevgilər gömrük adlayır gəmilərdə.
öz yorğa yerişində yırğalanar su,
sonsuza qədər unuda bilmərəm İstanbulu və səni.

YOSUN YORĞUNLUĞUNDA SU

yarpaqların altından axırdı su...
bəlkə də, heç yarpaqlar yox idi.
ləpələr üstündə uyuyan rüzgar,
yosun yorğunluğunda
rəsmini düzürdü duyğuların.
narın-narın ağlamsınan bir qız,
lilli təbəssümündə suların
dönmüş baxışını relsə qoymaq istərkən
sivişib getdi qatar
və cırcıramalar
bir blüz çaldılar axşam ağzında,
lap şeytana yanğı.
sözün düzü,
blüzü xoşlayır şeytan,
qız öpüşü xoşlayan kimi.
blüz sədaları altında gedir qatar
və ləpələr üstündə uyuyan rüzgar
yarpaq saraldır budaqlarda
həsrətdən qolay...
Ay, Ay, can soyudan Ay,
işpallar üstünə əzilib atılan bir salfet.
üzü şəhərə gedir qatar,
şəhərdən məktub gətirir internet.
ləpələr üstündə uyuyur rüzgar,
titrək pıçıltıları
sıraya düzdükcə bilgisayar
ekran narın-narın ağlar.
və yosun yorğunluğunda su,
burnunda odekolon qoxusu,
axar barmaqları altından
təbəssümü lilli qızın.

RETRO SEVGİLƏR GECƏSİ

pəncərədən baxan gözəl,
həsrətini yeyən mənəm.
eşqin odlu çuxasını,
ürəyinə geyən mənəm.

gecə əridir yağını,
huşum gəzir otağını,
yasaqların budağını,
oğrun-oğrun əyən mənəm.

göy üzünü tutdu boyaq,
dünya yatır, hisslər oyaq,
pəncərəni yuxu sayaq,
döyən mənəm, döyən mənəm.

Ay əriyir yana-yana,
ilmə düşür şirin cana,
çıx eyvana, çıx eyvana,
sənə nəğmə deyən mənəm.